**RƏVANƏ QULİYEVA**
**Bakı Slavyan Universiteti**
**ravana@mail.ru**

# SUAL CÜMLƏSİ ÜZƏRİNDƏ İŞİN BƏZİ İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** *cümlə, nəqli cümlə, sual cümləsi, intonasiya, sual ədatları.*
**Ключевые слова:** предложение, повествовательное предложение, вопросительное предложение, интонация, вопросительные частицы.
**Key words:** sentence, declarative sentence, interrogative sentence, intonation, interrogative particles.

Azərbaycan dili tədrisinin əsas vəzifəsi şagirdlərin nitqinin inkişafına nail olmaq, onlara bir sıra bilik və bacarıqlar aşılamaqdır. Bu iş məktəbə hazırlıq mərhələsindən başlamış, məktəbi bitirənə kimi davam edir. Təhsil aldıqları illər ərzində şagirdlər nitq inkişafı ilə bağlı bir sıra bacarıq və vərdişlərə yiyələnirlər. Söz yox ki, nitq inkişafı yalnız cümlə qurmaqla bitmir. Bu nitq inkişafı üzrə işlərin yalnız bir istiqamətidir. Cümlə qurmaq və fikri müxtəlif şəkildə ifadə etmək bacarıqlarının formalaşdırılması ibtidai siniflərdən xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dilinin nüvəsi nitq fəaliyyəti ilə bağlıdır, təməli cümlə qurmaq vərdişləri ilə qoyulur. Cümlə qurmaq bacarıqlarının inkişafı şagirdlərə öz fikrini sərbəst, aydın və dəqiq şəkildə çatdırmağa, əsas fikri düzgün anlamağa imkan yaradır.

Cümlələr üzərində iş həm də ona görə əhəmiyyətlidir ki, o, fonetika, leksika, morfologiya və sintaksisin tədrisinə, dilçiliyin müxtəlif bölmələri arasında inteqrasiya yaradılmasına şərait yaradır, dil və ədəbiyyat dərslərinin fənlərarası əlaqələr zəminində tədrisinə imkan verir. Sözlərin leksik mənası cümlədə aydınlaşır, dəqiqləşir. Sözlər cümlə daxilində digər sözlərlə əlaqəyə girir, hansı mənada (məcazi və ya həqiqi) işləndiyi müəyyənləşdirilir. Cümlə üzərində işlərin bir neçə istiqamətdə aparılması səmərəli nəticə verir: 1. Cümlənin qrammatik xüsusiyyətlərinin izah edilməsi; 2. Şagirdlərdə məqsəd və intonasiyaya görə müxtəlif cümlə növlərindən istifadə etmək bacarıqları formalaşdırmaq; 3. Cümlədə sözləri dəqiq və yerində işlətmək bacarıqları formalaşdırmaq.

Məlumdur ki, təlim prosesi asandan çətinə, sadədən mürəkkəbə prinsipi əsasında aparılır. Məktəbə hazırlıq mərhələsində və ibtidai siniflərdə bu prinsipə xüsusilə diqqət yetirilir. Bu, şagirdlərin yaş səviyyəsi, dərketmə qabiliyyəti və psixologiyası ilə bağlı bir məsələdir. Məktəbəqədər hazırlıq dövründə şagirdlərin cümlə anlayışı ilə ilk praktik tanışlığı şagirdlər kitabda verilmiş müxtəlif şəkillərə baxmaqla cümlə qurmaq bacarıqlarını təkmilləşdirirlər. İlk günlərdən başlayaraq niqdən cümlələri ayırmağı, orada

kimin və ya nəyin haqqında danışıldığını müəyyənləşdirməyi, cümlə tərtib etməyi, sualların köməyi ilə onu genişləndirməyi, cümləni böyük hərflə yazmağı, sonunda nöqtə qoymağı öyrənirlər. Sonralar isə cümlənin bir və ya bir neçə sözdən ibarət olduğunu da dərk edirlər. Cümlə haqqında anlayışlar formalaşdırmaq üçün lövhədə bir neçə söz (məsələn, Azərbaycan, mən, Vətən) yazılır. Şagirdlərin diqqətini bu sözlərə yönəldir. Həmin sözlərdən cümlə qurmağı tapşırır. Şagirdlər «Azərbaycan mənim Vətənimdir» cümləsini yazırlar. Daha sonra müəllim yuxarıda verilmiş sözlərlə onlar əsasında düzəlmiş cümləni müqayisə etməyi təklif edir.

Onların oxşar cəhətləri eyni sözlərdən ibarət olmasıdır. Fərqli cəhətləri isə odur ki, cümlədəki sözlər bir-biri ilə əlaqədardır.. I halda sözlər bir-birinin ardınca sadalanır, onlar arasında vergül qoyulur. Cümlədə I söz yüksək tonla tələffüz olunur, sonuncu sözə çatanda səs tonu enir. Daha sonra cümlə anlayışını şüurlu mənimsətmək üçün şagirdlərə sərhədi məlum olmayan cümlələrdən ibarət mətn təqdim olunur. Müəllim hər cümləni ayrılıqda oxumağı tələb edir. Şagirdlər əvvəlcə mətnin məzmunu ilə tanış olur, sonra oxuyurlar. Bu zaman cümlələr sona yaxın bir qədər alçaq tonla tələffüz edilir. Daha sonra həmin mətn dəftərə köçürülür. Bununla da cümlələri bir-birindən fərqləndirməyi, cümləni böyük hərflə başlamağı, sonda nöqtə qoymağı öyrənirlər.

Sonrakı mərhələlərdə cümlənin bir və ya bir neçəə sözdən ibarət olması ilə bağlı iş aparılır. Daha sonra isə cümlədə sözlərin yerlərini müəyyənləşdirməklə bağlı məşqlər aparılır. Şagirdlərə şəkillər göstərilir və cümlə qurmaq tələb olunur: 1. Quş uçur. 2. Şagird yazır. 3. Maşın gedir. 4. Ceyranlar qaçır. 5. Çay axır.

Müəllim hərəkət bildirən sözlərin cümlədəki yerini soruşur. Məlum olur ki, hərəkət bildirən sözlər sonda işi görən şəxsi və ya əşyanı bildirən söz əvvəldə işlənir. Onu qurmaq şagirdlər üçün çətinlik törətmir. Çünki nəqli sözü nağıl etmək sözünə mənaca yaxın olduğundan onu tez yadda saxlayırlar. "Sual cümləsi" termini ilə tanış olmasalar da, şagirdlər belə cümlələri çox işlədirlər. Ona görə də müəllim onları sual cümlələri ilə tanış etmək üçün sinfə müxtəlif şəkillər gətirə bilər, yaxud, "ağıllı lövhədə" təsvirləri canlandıra bilər. Məsələn rəssam Risetnikovun "Yenə də iki" əsərini uşaqlara göstərib ananın oğluna nə dediyini soruşmaq olar. Şagirdlər "Yenə iki almısan?", "Niyə evə gec gəldin?", "Hara getmişdin?", "Bu nə üst-başdır?" kimi cavablar deyirlər. Müəllim uşaqlara izah edir ki, nəyisə öyrənmək üçün dediyimiz cümlələr sual cümləsi adlanır. Sonra uşaqlara təklif edir ki, II, III və IV cümlələri sual sözlərini demədən oxusunlar. Şagirdlər cümlələrin mənasız söz yığınına çevrildiyini, yaxud tamam yeni mənalı bir cümlə yarandığını deyirlər.

M - Bu görən niyə belə olur?

Şı - Görünür, sual cümlələri sual sözlərinin köməyi ilə yaranır.

Ş2 - Sual sözləri olmadan sual cümləsi olmaz.

M - Əgər belədirsə, bəs I cümləyə nə ad verək. Axı orada sual sözləri yoxdur.

Şagirdlər çətinlik qarşısında qalırlar və çıxış yolu axtarırlar.

M - Uşaqlar, gəlin məsələyə başqa cür yanaşaq.

Əgər ana oğlanın gündəliyini açıb oradakı qiyməti görərsə, onda nə deyər?

Ş2- Yenə iki almısan?

M - Bəs onda I cümlə ilə bu cümləni fərqləndirən nədir? Nə üçün biz birinciyə sual, sonuncuya isə nəqli cümlə deyirik. Onların fərqi nədir?

Ş1- ikinci vəziyyətdə ikini ana özü görür və öz-özünə danışır.

Ş2- Birinci halda cümlə bir qədər yüksək səslə ifadə olunur, cümlənin sonuna doğru səs ucalır.

M - Doğrudur! Uşaqlar, sual cümlələrin də cümlənin sonuna yaxınlaşdıqca səs ucalır.

Gəlin indi başqa bir şəklə baxaq.

Şəkildə bir uşaq telefonun ekranında, yaxud kompüterin monitorunda görünən şəxsə müraciətlə deyir.

Bir üzümə gülərsənmi?
Göz yaşımı silərsənmi?
Özün durub gələrsənmi?
Bilsən necə darıxmışam.

M - Uşaqlar, bunlar da sual cümləsidir. Ancaq bu cümlələrdə sual sözləri yoxdur. Bunlar intonasiyanın köməyi ilə sual cümləsinə çevrilir, ancaq burada intonasiya daha güclüdür. Kim deyər, bu cümlələrin daha gözəl səslənməsinə nə səbəb ola bilər?

Şagirdlərdən kimsə bu cümlələrin qüvvətli deyilməsinə -mı$^4$ şəkilçisinin (?) səbəb olduğunu söyləyir.

M- Əhsən, doğrudan da bu cümlələrin daha gözəl deyilməsinə səbəb -mı$^4$- dür. Ancaq bu şəkilçi yox, şəkilçi formasında olan köməkçi nitq hissəsi - ədatdır.

Biz ədatlarla yuxarı siniflərdə tanış olacağıq.

Deməli, sual cümlələri 3 yolla düzəlir:

1. intonasiya ilə
2. sual sözləri ilə
3. sual ədatları ilə

İntonasiya görə cümlənin növlərini öyrədərkən müəllim bədii əsərlərdən nümunələr seçməli, onları durğu işarələri buraxılmaqla oxumağı təklif etməlidir. Məs:

1) Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan. (S.V.)

2) Sən nə yamansan, a buz,
Adam yıxansan, a buz. (M.Ə.Sabir)

3) Nədir sözün, sünbülüm?
Gülür üzün, sünbülüm. (H.Z.)

Sonra şagirdlərə dialoqlar qurmağı tapşırmaq olar. Bu dialoqları müxtəlif mövzulu etüdlər kimi səhnələşdirmək olar. Bu bir tərəfdən dərsə əyləncə xarakteri vermiş olar, uşaqları yormaz, bir tərəfdən isə təlimə marağın artmasına səbəb olar.

Yuxarı siniflərə keçdikcə oxu mətnləri üzərində iş prosesində şagirdlərə aşağıdakı tipli suallarla müraciət etmək olar.

1. Mətn niyə belə adlandırılıb?
2. Onu başqa cür necə adlandırmaq olar?
3. Mətndəki misallardan, yaxud heyvanlardan kimi bəyəndin?
4. Kimi xoşlamadın?
5. Ona nə demək istərdin?

Nəticədə şagirdlər müxtəlif cümlələr qurmaq vərdişləri qazanır, fikrini ifadə etməyi həm də gözəl, aydın, düzgün ifadə etməyi öyrənirlər.

Sonralar şagirdlər cümlənin üzvləri ilə tanış olur, onların cümlədəki yerləri barədə məlumat alır.

Şagirdlərə yuxarı siniflərdə məntiqi vurğu haqqında da məlumat verilir.

M - Uşaqlar, verilmiş sözləri oxuyun, onların mənasını izah edin.

gəlin vurma qovurma
süzmə çıxma alma

Şagirdlər sözləri müxtəlif şəkildə tələffüz edir və mənalarını da tələffüzə uyğun izah edirlər. Müəllim deyir ki, hər birinizin cavabı düzdür, çünki siz vurğunun yerini dəyişirsiniz. Vurğunun yeri dəyişəndə məna dəyişir. Cümlənin içindəki sözlərdən biri başqalarından qüvvətli tələffüz olunur. Bu məntiqi vurğu adlanır. Cümlədə xəbərdən əvvəl gələn söz məntiqi vurğu ilə deyilir. Sözün yeri dəyişəndə cümlənin mənasında da fərq yaranır. Məs:

Sabah qardaşım Gəncədən <u>qatarla</u> gəlir.

Qatarla sözü məntiqi vurğu ilə deyilir və danışan adam qardaşının avtobusla, yaxud təyyarə ilə yox, məhz qatarla gələcəyini vurğulayır.

Sabah qardaşım qatarla <u>Gəncədən</u> gəlir.

Bu cümlədə isə qardaşının başqa yerdən yox, məhz Gəncədən gəldiyini xəbər verən natiq fikrini başqa cür ifadə edir.

Qardaşım Gəncədən qatarla <u>sabah</u> gəlir.

Sabah Gəncədən qatarla <u>qardaşım</u> gəlir.

Şagirdlərin nitq vərdişlərinin inkişafı üçün müxtəlif çalışmalar üzərində iş aparılması zəruridir.

1. Suallar tərtib edilməsi və onların cavabları; Bu suallar həm konkret, həm də sərbəst mövzularda tərtib edilə bilər. "Şagirdlərin özünün sualvermə prosesinə cəlb olunması isə sual cümlələrini aydın, qrammatik formaya müvafiq və müəyyən üslubi çalarda qurmağa kömək edir (2, 277). Lakin bu zaman bir məsələyə diqqət yetirilməsi zəruridir. Belə ki, şagirdlər çox vaxt suallara "bəli, xeyr, hə, yox" ya da bir sözlə (yarımçıq cümlə) ilə cavab verməyə çalışırlar. Cümlə qurmaq vərdişlərini inkişaf etdirmək məqsədilə suallara tam cavab almaq məsləhətdir.

2. Müəllimin, yoldaşlarının qurduğu cümlələrə cavab vermək; "Sual vermək bacarığı uşaqlarda cümlə qurmaq bacarığını inkişaf etdirir" (5, 464).

3. Cümlələrdəki hər hansı sözü başqası ilə əvəz etmək;

4. Cümlələrdəki feillərin zamanını və ya şəxsini dəyişmək;

5. Verilmiş çoxmənalı sözləri, omonimləri, sinonimləri və antonimləri cümlədə işlətmək;

6. Cümlələri genişləndirmək;

7. Pərakəndə şəkildə verilmiş sözlərdən cümlələr qurmaq;

8. Hər hansı bir mövzuda dialoq tərtib etmək;

9. Cümlədə bir-biri ilə əlaqəli olan sözləri seçmək.

## Ədəbiyyat

1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dili tədrisinin metodikası. Bakı, 1964.
2. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. B, 2014.
3. Dəmirçizadə Ə. Müasir Azərbaycan dilindəki sual cümlələri. "Azərbaycan məktəbi, 1947, №1.
4. Əfəndiyev C. Müasir Azərbaycan dilində sual cümlələrinin məntiqi vurğusu və intonasiya. Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. VIII c. 1957.
5. Kərimov Y. Ana dilinin tədrisi metodikası B., Naşir, 2005.

**Р.Гулиева**

## Некоторые направления работы над вопросительным предложением

## Резюме

Статья посвящена некоторым направлениям работы над вопросительным предложением. Формирование способности строить предложения и выражать различные идеи имеет значения с начальных

классов. Ядро азербайджанского языка связано с речевой деятельностью, а основа строится с помощью навыков построения предложения. Развитие способности строить предложения создает условия для правильного понимания основной идеи, точного, ясного донесения мысли.

Работы над построением предложения начинается еще с подготовки к школе. Изначально предложения строятся на основе данных картинок. Даются названия текстам. Далее, дается информация о грамматических особенностях предложения. Предложения по цели и интонации делятся на четыре вида: повествовательное, восклицательное, повелительное и вопросительное предложения.

**R.Guliyeva**

**Some areas of work on the question sentence**

**Summary**

The article is devoted to some areas of work on the interrogative sentence. Formation of the ability to build sentences and express different ideas has values from primary school. The core of the Azerbaijani language is associated with speech activity, and the foundation is built with the help of sentence building skills. The development of the ability to build sentences creates the conditions for a correct understanding of the basic idea, an accurate, clear message of thought.

Work on the construction of the proposal begins with the preparation for school. Initially, the proposals are based on these images. Given the names of the texts. Further, information is given on the grammatical features of the sentence. Proposals for the goal and intonation are divided into four types: narrative, exclamatory, imperative and interrogative sentences.

**Rəyçi: Çimnaz Məmmədova**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**